# Təhsil naziri Mikayıl Cabbarov Moskvada işgüzar səfərdə olub

## Təhsil naziri bir sıra görüşlər keçirib





Moskvaya işgüzar səfəri çərçivəsində təhsil naziri Mikayıl Cabbarov aprelin 13-də Moskva Beynəlxalq Təhsil Salonunun açılış mərasiminə qatılıb.

Mərasimdə Rusiya Federasiyası Hökuməti başçısının müavini Olqa Qolodets, təhsil və elm naziri Dmitri Livanov çıxış ediblər. Mikayıl Cabbarov Beynəlxalq Təhsil Salonunu gəzərək təhsil sahəsində aparıcı texnologiyaların və təcrübələrin nümayiş edildiyi stendlərlə tanış olub.

Salonu ziyarət çərçivəsində Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov Rusiya Federasiyasının təhsil və elm naziri Dmitri Livanov və İran İslam Respublikasının təhsil naziri Əliəsgər Fani ilə işçi görüşlər keçirib, təhsil sahəsində qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə edib.

Aprelin 13-də təhsil naziri həmçinin, Rusiya Dövlət Humanitar Universitetinə səfər edərək bu ali məktəb, tədris ocağının muzeyi və kitabxanası ilə tanış olub. Ali təhsil müəssisəsinin prezidenti Yefim Pivovar və rektoru Yevgeni İvaxnenko ilə görüş zamanı mövcud və gələcək əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Daha sonra Mikayıl Cabbarov A.S.Puşkin adına Dövlət Rus dili İnstitutunun rektoru Marqarita Rusetskaya ilə görüş keçirib. Görüşdə Azərbaycanın rus dili müəllimləri üçün təlimlərin təşkili sahəsində əməkdaşlıq perspektivləri dəyərləndirilib.

## Moskvada təhsil alan azərbaycanlı tələbələrlə görüş

Azərbaycanın təhsil naziri Mikayıl Cabbarov Moskvaya səfəri çərçivəsində Rusiyada təhsil alan azərbaycanlı gənclərlə görüşüb.

Görüşdə Rusiyanın aparıcı təhsil müəssisələrində oxuyan 50-dən çox tələbə, Rusiya Azərbaycanlı Gənclər Birliyinin fəalları iştirak ediblər.

Nazir gənclərə Azərbaycan ilə Rusiya arasında sıx iqtisadi və humanitar əlaqələrdən, ölkəmizdə son illər iqtisadi və siyasi sahələrdə qazanılan nailiyyətlərdən, rus dilində təhsilin inkişafı və digər mühüm məsələlərdən danışıb. Qeyd edib ki, xarici ölkələrdə, xüsusilə də Rusiyada yaşayan gənclərimiz Azərbaycan dövlətinin siyasətinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyinin təbliğində mühüm rol oynamalıdırlar. Son günlər Dağlıq Qarabağda baş verən hadisələr zamanı dünyanın böyük dövlətlərinin Azərbaycanın mövqeyini dəstəkləməsinin Prezident İlham Əliyevin düzgün xarici siyasətinin nəticəsi olduğunu söyləyən M.Cabbarov bu siyasətin xarici ölkələrin ictimaiyyətinə çatdırılmasında diasporların, xüsusilə də gənclərin rolunu vurğulayıb.



Nazir Moskvaya səfəri çərçivəsində Rusiya Təhsil Akademiyasında və Rusiya MDB, Xaricdə Yaşayan Həmvətənlərin İşləri və Beynəlxalq Humanitar Əməkdaşlıq üzrə Rusiya Federal Agentliyində görüşlər keçirdiyini, Rusiya Təhsil Nazirliyi ilə təhsil və elm sahələrində birgə layihələrin həyata keçirilməsi məsələlərini müzakirə etdiyini qeyd edib.

Mikayıl Cabbarov tələbələrin suallarına cavab verərək xarici ölkə ali məktəblərinin diplomlarının Azərbaycanda tanınması məsələsinə də toxunub. O bildirib ki, bəzi ali məktəblərin verdikləri diplomların legitimliyi sual doğurur. Bu sahədə qanunvericilikdə bir dəyişiklik edilməyib. Lakin Rusiyada təhsil alıb, öz fikrini rus dilində ifadə edə bilməyən məzunun diplomu təsdiq edilməyəcək və yalnız öz ölkəsində akkreditasiyadan keçmiş ali məktəbin diplomu Azərbaycanda tanına bilər. Nazirlikdə diplomların tanınması ilə məşğul olan xüsusi idarə yaradılıb və bu proses tam elektron şəkildə həyata keçirilir.

Nazir, həmçinin qeyd edib ki, hazırda Azərbaycanda təxminən 3 minə yaxın xarici vətəndaş təhsil alır və onların yarısından çoxu Çindən gəlib. Rusiya vətəndaşı olan azərbaycanlıların da ölkəmizdə təhsil alması üçün heç bir maneə yoxdur.

Təhsil naziri vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə müəllimlərin əməkhaqqının iki dəfə, dərs yükünün 50 faiz artırılması təhsilə və ölkənin gələcəyinə ən böyük töhfədir. Bundan əlavə, Azərbaycanda məktəb direktorlarının seçilməsinin şəffaf sisteminin də qurulduğunu deyən nazir bu vəzifələrə namizədlərin bilik və bacarığının əsas götürüldüyünü diqqətə çatdırıb.

Nazir Azərbaycanda həyata keçirilən xaricdə təhsil proqramına da münasibət bildirərək deyib ki, artıq proqramın yeni forması hazırlanır. Yeni proqrama uyğun olaraq xaricə, əsasən PHD və magistr səviyyəsində təhsillərini davam etdirmək istəyən gənclər göndəriləcək və eyni zamanda, dünyanın aparıcı ali təhsil müəssisələrindən professor-müəllim heyəti cəlb olunacaq.

**AZƏRTAC**

## Səfərin nəticələri və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub

Aprelin 14-də təhsil naziri Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyində Rusiyada təhsil alan tələbələr və gənc alimlər qrupu ilə görüşüb. Görüşdən əvvəl nazir Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin barelyefi önünə gül dəstəsi qoyub və cari ilin aprel ayının əvvəlində baş tutmuş hərbi qarşıdurma zamanı vətəni qoruyarkən şəhid olanların şərəfinə yaradılmış xatirə stendinə baş çəkib.

Açılış nitqində təhsil naziri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ümumi inkişaf strategiyasının hissəsi kimi təhsil sahəsində aparılan islahatlardan danışıb. Nazir gənc azərbaycanlıların xaricdə ən yüksək səviyyədə təhsil almalarının və Azərbaycana qayıdıb müvafiq sahələrdə töhfə vermələrinin əhəmiyyətini vurğulayıb. M.Cabbarov ictimai işin əhəmiyyətini xüsusilə qeyd edib və bu sahədə Leyla xanım Əliyevanın müvəffəqiyyətlə rəhbərlik etdiyi Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) fəaliyyətini yüksək qiymətləndirib. Nazir Tələbə və Elmi Cəmiyyətin yaradılması təşəbbüsünü müsbət qarşılayıb və bunun azərbaycanlı gənclərin bir-biri ilə əlaqə qurması üçün yaxşı platforma olacağına ümid etdiyini bildirib. Sonra təhsil naziri tələbələrin suallarını cavablandırıb.



Həmin gün təhsil naziri Rusiya Təhsil Akademiyasının prezidenti Lyudmila Verbitskaya ilə görüşüb. Xanım Verbitskaya keçən il Bakıya səfərini və Azərbaycanın inkişafından, Bakının memarlığından və rus dili biliyi səviyyəsindən məmnun qaldığını xatırlatdı. Tərəflər təhsil sahəsində aparılan islahatlar haqqında məlumat mübadiləsi apardılar və Akademiya ilə Təhsil Nazirliyinin tabeliyində olan müvafiq institutlar arasında əməkdaşlığı gücləndirməyə razılaşdılar.

Gün ərzində nazir Moskva Təhsil Departamentinin və "Rossotrudniçestvo" Agentliyinin rəhbərliyi ilə işçi görüşlər keçirərək əməkdaşlığın indiki vəziyyətini və onun genişləndirilməsi üçün potensial imkanları müzakirə etdilər.

Səfərin sonunda təhsil naziri Mikayıl Cabbarov Rusiya Federasiyasının təhsil və elm naziri D.Livanovla yekun görüş keçirib, səfərin nəticələri və gələcək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

Azərbaycan nümayəndə heyətinin səfəri başa çatıb.